

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 191 (23.603)

5 noyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib. Müsahibədə bildirilib ki, biz münaqişəni danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik. Qeyd olunub ki, Türkiyə kimi güclü ölkə bu məsələ ilə bağlı mövqeyini açıq şəkildə bəyan etməklə, həm də bütün dünyaya mesaj göndərir ki, Azərbaycan doğru işi görür. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir, Azərbaycan öz ərazisində döyüşür.

Prezident İlham Əliyev bildirib ki, İtaliya neft təchizatına görə bizim üçün əsas ticarət tərəfdaşıdır və tezliklə biz TAP-ın açılışını qeyd edəcəyik və bununla da Cənub Qaz Dəhlizi tamamlanmış olacaqdır. Əminəm ki, bu münaqişə bizim təkcə İtaliya ilə münasibətlərimizə yox, heç bir ölkə ilə münasibətlərimizə təsir etməyəcək.

### Dövlət proqramı icra olunur

## Meyvəçiliyin və tərəvəzçiliyin inkişafına dövlət dəstəyi davam etdirilir

***Muxtar respublikanın əlverişli iqlim şəraiti kənd təsərrüfatının əhəmiyyətli sahələrindən olan meyvəçiliyin və tərəvəzçiliyin inkişafına da şərait yaradır, meyvə və tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi ilə bağlı tədbirlər uğurla davam etdirilir. Görülən işlər yüksək məhsuldarlığa və keyfiyyət göstəricilərinə malik məhsulların istehsalı ilə nəticələnir ki, bu da muxtar respublika əhalisinin sağlamlığının qorunması və rifahının yüksəldilməsi deməkdir. Həyata keçirilən tədbirlərin kompleks xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın mühüm rolu vardır.***

Kənd təsərrüfatının inkişafında başlıca amil olan meliorasiya sahəsi muxtar respublikamızda son illər ən çox diqqət göstərilən sahələrdəndir. Proqramın icrası istiqamətində də meliorasiya tədbirlərinin həyata keçirilməsi meyvəçiliyin və tərəvəzçiliyin səmərəli inkişafına təkan verməkdədir. Bu tədbirlərin uğurla reallaşdırılması üçün ən mühüm şərtlərdən biri müasir standartlara cavab verən texnoloji avadanlıqların tətbiq edilməsidir. Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 17 adda 67 müxtəlif təyinatlı yeni maşın, texnika və avadanlıq təqdim olunmuşdur. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Yeni texnika təqdimatı keyfiyyətli və bol məhsul istehsalında əsas amildir. Suvarma işləri və aqrotexniki tədbirlər də vaxtında həyata keçirilərsə, torpaqlardan bol məhsul götürülər. Bu gün muxtar respublikada yeni qapalı suvarma şəbəkələri qurulur. Yeni texnika və avadanlıqlardan həmin işlərin həyata keçirilməsində də istifadə olunacaqdır. Bütün bunlar isə kənd təsərrüfatının inkişafına mühüm töhfədir".*** Dövlət proqramının icrasına uyğun olaraq üçüncü rübdə torpaqların su təminatının yaxşılaşdırılması üçün suvarma şəbəkələrinin tikintisi diqqətdə saxlanılmışdır. Ümumilikdə, iyul-sentyabr aylarında muxtar respublikada 1070 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 55,81 kilometr müxtəlif diametrli borularla xətt çəkilmiş, 545 supaylayıcı hovuz, 545 hidrant quraşdırılmış, 32,21 kilometr kanallarda, 43,39 kilometr arxlarda lildən təmizləmə işləri yerinə yetirilmişdir.

Torpağın məhsuldarlığının və əkinçilik mədəniyyətinin yüksəldilməsi məhsul bolluğuna nail olmağın əsas vasitələrindəndir. Ekoloji cəhətdən münbitliyin artırılması, o cümlədən torpağın eroziyası ilə mübarizə mühüm əhəmiyyət kəsb edən məsələdir. Dövlət proqramında da bu istiqamətdə tədbirlərin həyata keçirilməsi ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. Üçüncü rübdə kənd təsərrüfatı istifadəsindən kənarda qalmış torpaq sahələrində meyvə bağlarının salınmasına ictimai marağın artırılması məqsədilə 6 maarifləndirici tədbir keçirilmişdir. Əkinçilikdə yüksək məhsuldarlığın təmin edilməsi istiqamətində hazırlanmış 350 buklet iri fermer və ailə təsərrüfatlarına paylanmışdır. Şərur rayonunun Xanlıqlar, Ələkli, Dərvişlər, Çəmənli, Kosacan və Siyaqut kənd bələdiyyələri üzrə torpaqların qida maddələri ilə təminolunma kartoqramları hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Həmçinin Dizə, Axura, Havuş, Həmzəli, Gümüşlü, Kəngərli rayonunun Yurdçu, Qabıllı, Çalxanqala, Yeni Kərki, Ordubad rayonunun Çənnəb, Üstüpü, Aza, Babək rayonunun Şıxmahmud, Yuxarı Uzunoba, Şahbuz rayonunun Biçənək, Aşağı və Yuxarı Qışlaq kənd bələdiyyələri üzrə işçi planları hazırlanaraq torpaq analizlərinin aparılması üçün "Araz" Elm-İstehsalat Birliyinə təhvil verilmişdir. Şərur, Babək, Culfa və Sədərək rayonlarında, ümumilikdə, 186,5 hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. Əkin atlaslarına uyğun əkin aparılması məqsədilə sentyabrın 30-da Şərur rayonunda maarifləndirici tədbir keçirilmişdir.



Muxtar respublikada aqrar sektora göstərilən dövlət dəstəyi əsas etibarilə bu sahədə intensiv inkişafın təmin olunmasına və məhsuldarlığın yüksəldilməsinə şərait yaradır. Çünki kənd təsərrüfatı potensialından məqsədəuyğun istifadə dayanıqlı inkişafın əsas şərtlərindəndir. Üçüncü rübdə muxtar respublikaya 65 min kiloqram gübrənin, 4 min kiloqram toxumluq arpanın, 17 min kiloqram toxumluq buğdanın, 45 min 900 tərəvəz şitilinin və 6 min 250 müxtəlif tingin gömrük ödənişi tətbiq edilmədən gətirilməsi bu sahəyə göstərilən qayğının bariz nümunəsidir.

Meyvə-tərəvəz məhsullarının tədarükü və saxlanılması ilin bütün fəsillərində əhalinin bu məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsi deməkdir. Bu mənada, muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən ən mühüm tədbirlərdən biri də soyuducu anbarların yaradılmasıdır. Dövlət proqramının icrasına uyğun olaraq bu sahədə dövlət maliyyə dəstəyi əhəmiyyətli rol oynamaqdadır. Üçüncü rübdə dövlət maliyyə dəstəyi hesabına Şərur rayonunda ümumi tutumu 200 ton olan 1 soyuducu anbarın yaradılması başa çatdırılmış, ümumi tutumu 250 ton olan 1 soyuducu anbarın yaradılması davam etdirilmişdir. "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ümumi tutumu 800 ton olan soyuducu anbarın layihə-smeta sənədləri hazırlanmış və tikintisinə başlanmışdır.





Muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən uğurlu tədbirlər sakinlərin əkin sahələrini, təsərrüfatlarını genişləndirmələri və yeni təsərrüfatlar yaratmaları, texnikalar almaları ilə nəticələnir. Cari ilin üçüncü rübündə də bu, müşahidə olunmuşdur. Belə ki, Culfa rayonunda göbələk istehsalı sahəsinin, Babək rayonunda 3 hektarda bostan bitkilərinin əkini başa çatdırılmış, Babək rayonunda 2 bağçılıq təsərrüfatının yaradılması, Şahbuz rayonunda 1 bağçılıq təsərrüfatının fəaliyyətinin stimullaşdırılması davam etdirilmişdir. Ordubad rayonunun Üstüpü kəndində fəaliyyət göstərən 1 ailə təsərrüfatçısına əkin sahələrinə aqrotexniki qaydada qulluğun göstərilməsi və kənd təsərrüfatı texnikasının alınması məqsədilə 15 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Meyvəqurutma sahəsi ilə bağlı hazırlanmış 3 layihənin təqdimatı keçirilmiş, Şərur rayonunun Oğlanqala kəndində 1 istixana təsərrüfatının fəaliyyətə başlaması təmin olunmuşdur.

Məhsulun yüksək keyfiyyəti satışı və rentabelliyi artırır, ixrac potensialının yüksəlməsinə təkan verir. Bu da əhalinin rifah halının və həyat səviyyəsinin daha da yaxşılaşdırılması ilə nəticələnir. Ona görə də kənd təsərrüfatı məhsullarının keyfiyyətinin nəzarətdə saxlanılması xüsusi əhəmiyyət daşıyır. Dövlət proqramının icrası məqsədilə iyul-sentyabr aylarında "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 53 halda meyvə-tərəvəz məhsullarından orta nümunələr götürülərək laboratoriya analizlərinə cəlb edilmişdir. Keyfiyyət göstəricilərinin 52 nümunədə tələblərə cavab verdiyi, 1 nümunədə isə aşağı səviyyədə olduğu müəyyən edilmiş və nəticəsi barədə qanunvericiliyə uyğun tədbir görülmüşdür. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər üzrə məhsulların 91 halda keyfiyyət və ya təhlükəsizlik göstəriciləri yoxlanılmış, 2 halda sertifikatlaşdırma həyata keçirilmişdir.

Dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsi ilə sağlam rəqabət mühitinin yaradılması və kənd təsərrüfatı məhsullarının kütləvi istehsalı dövründə daxili bazarın qorunması iqtisadi artımı dayanıqlı edən başlıca amillərdən hesab olunur. Üçüncü rübdə proqramın icrası istiqamətində Naxçıvan şəhəri, Xətai küçəsində yerləşən Mərkəzi Bazarda hər həftənin şənbə və bazar günləri təşkil edilən yarmarkalar istehsal olunan məhsulların satışı üçün hərtərəfli şərait yaratmışdır. Keçirilən yarmarkalarda ailə təsərrüfatları ilə yanaşı, 25 yerli istehsal müəssisəsinin iştirakı təmin edilmişdir.

Meyvə-tərəvəz təsərrüfatlarında ziyanverici və xəstəliklərin mövcudluğu məhsuldarlığın azalması təhlükəsi yaradır. Belə fəsadların qarşısının alınması üçün mübarizə tədbirlərinin vaxtında aparılması itkilərin sayını minimuma endirir. Bu istiqamətdə üçüncü rübdə "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin mərkəzi və rayon bazarlarında yerləşən apteklərdə 150 kiloqram bitki mühafizə dərmanlarının satışı həyata keçirilmişdir. Bunlarla yanaşı, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının dəstəklənməsi, genetik modifikasiya olunmuş məhsulların muxtar respublikaya idxalının və dövriyyəsinin qarşısının alınması məqsədilə 3 maarifləndirici buklet hazırlanmış, ailə təsərrüfatlarına paylanması üçün şəhər və rayon icra hakimiyyətlərinə təqdim edilmişdir.

*"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatının, əsasən, yerli istehsal hesabına ödənilməsinə səbəb olur. Eyni zamanda Naxçıvan artıq yerli və keyfiyyətli meyvə-tərəvəz məhsullarının ixrac potensialına malikdir. Bu isə meyvəçiliyin və tərəvəzçiliyin muxtar respublikanın kənd təsərrüfatı sahəsində mühüm rola malik olduğunu göstərir.*

**"Şərq qapısı"**

# El bir oldu, dağ oynatdı yerindən

Axşamüstüdür, ezamiyyətdə olduğum Sədərək rayonundan çıxıb şəhərə tələsirəm. Yolüstü daxil olduğum Heydərabad qəsəbəsindəki mağazaların birində alış-veriş edənlərin arasında yaşlı bir ağsaqqal diqqətimi çəkir. O, əlindəki plastik kartı satıcıya tərəf uzadaraq deyir:
– Ay oğul, bax gör buaykı müavinətim gəlibsə, o pulun dəyəri qədər mənə isti corab, bir az da o ev şirniyyatından ver. Satıcı qocaya: “Baş üstə”, – deyib onun istədiklərini torbalara yığır. Ağsaqqalın bu alış-verişi əsgərlərə etdiyini başa düşdüyüm üçün babaya yaxınlaşıb kim olduğu ilə maraqlanıram. O isə kimliyini açıqlamır: “Bir əlin verdiyindən digər əlin xəbəri olmamalıdır. Bu bizim hər birimizin vətəndaşlıq borcudur. Mən özüm də müharibə veteranıyam, dövlətimiz mənə ev də verib, maşın da, aylığım da var. Bir nədir ki, onaylıq pensiyam qurban olsun o səngərdəki balalarıma. Çox yaxşı bilirəm, onların heç nəyə ehtiyacı yoxdur. Dövlətimiz onlar üçün ən uca dağların zirvəsində elə əsgər yataqxanaları inşa edib ki, orada lap bəy balası kimi yaşayır, xidmət edirlər. Amma, ay qızım, baba payı şirin olur”.

Babanın sözləri gün ərzində Sədərək rayonunda gördüklərimi və həmsöhbətlərimi yada salır.

Sədərək kəndində tanış olduğum Xatun xala bir igid şəhid bacısıdır. O da hər gün pay tutur əsgər balalarına. Bişir-düşür eləyib kəndin cavanlarını çağırıb postlara göndərir, əlindən gələni edir. Deyir ki, 90-cı illərdə də belə etmişik. O vaxtlar dövlətimizə həm mənəvi, həm də maddi cəhətdən dayaq durmuşuq. Evimiz həm də səngər olub. Biz o zamanlar kəndi boş qoyub köçsə idik, əsgər də arxasında xalqın olmadığını görər və ruhdan düşərdi. O vaxtlar mərd insanlar öz əməkhaqlarını, qızıllarını müdafiə fonduna silah-sursat almaq üçün bağışlamasaydı, evlərindən köçüb getsə idilər, indi nə torpağımız var idi, nə də azadlığımız. Qardaşım Elxan Qarabağa döyüşə gedəndə cəmi 22 yaşı var idi. Ağdam istiqamətində gedən döyüşlərdə şəhid olanda hələ körpəsi dünyaya gəlməmişdi. O, şəhid olub canını Vətənə qurban verdi, üzünü görmədiyi körpəsini Vətənə əmanət etdi. Bir neçə gün əvvəl televizorun qarşısında əyləşib Ali Baş Komandanın xalqa müraciətini dinləyirdim. Dövlət başçısının



“Qərivəli kəndi işğaldan azad edildi” dediyini eşidəndə qapıdan necə çıxmışamsa, Şəhidlər xiyabanına – qardaşım Elxanın məzarına çatanda gördüm ki, oraya kimi ayaqyalın gəlmişəm. Diz çökdüm, əlimi sinədaşına qoydum. “Qardaşım, gözün aydın, sənin tamamlaya bilmədiyin, düşmən gülləsinə tuş gəlib yarımçıq qalan arzuların çin oldu. Qalx, bir bax sənin kimi oğulların qanı ilə sulanan torpaq o murdarların izindən təmizləndi. Rahat uyu, şəhid qardaşım. Tanrı sənin kimi igidlərin torpağı qədər ömür yazsın o Vətən yolunda səfərbər olan igidlərə”, – dedim.

Səngərdəki oğulların hamısı bizim öz övladımızdır. Onlara bağımdan, süfrəmdən pay tutanda ürəyim sakit olur, az da olsa, rahatlıq tapıram. Bu bağın nübar meyvələrindən, birinci bax o dağlarda bizə keşik çəkən oğullarım dadır. Yığıb onlara göndərirəm. Axı onlar bu torpağı qorumasa, buranı necə əkib-becərərik? Onlar var deyə, sabitliyimiz var, torpağımız rahat nəfəs alır. Həyət-bacamda nə var, hamısı əsgər balalarıma qurbandır. Hələ bu nədir ki, imkan versələr, inanın ki, gedib onlarla birgə o postlarda dayanaram.

Sədərək kənd tam orta məktəbində tanış olduğum Leyli müəllimə əslən Zəngilan rayonundandır. Onun sevincinin həddi-hüdudu yoxdur. Doğma yurdunun işğaldan azad edildiyi xəbərini iş yoldaşları ilə toplaşıb əsgərlərə isti qutab, təndir çörəyi bişirdiyi zaman alıb. Deyir ki, 25 ilə yaxındır, bu elin gəliniyəm. Sədərək də yurdum-yuvamdır. Burada 90-cı illərin çətin sınaqlı günlərini yaşamışam. Həmin vaxtlar dahi rəhbərin ətrafında sıx birləşərək ordumuzun yaradılmasında və yaşadılmasında var gücünü əsirgəməyən naxçıvanlılar bu gün də xalq-ordu birliyinin nümunəsini göstərirlər. O çətin günlərdə evlərində qalıb səngərdə döyüşənlərə isti çörək, yemək bişirib göndərən, neçə xatirələrin, neçə arzuların yadigarı olan qızıllarını müdafiə fonduna bağışlayan anaların övladları bu gün də həmin ənənəni davam etdirirlər. Uzun illərdir ki, keçirilən iməciliklər nəticəsində bütün magistral yolların ətrafına salınan meyvə bağlarından idarə və müəssisələr tərəfindən toplanan məhsullar mütəmadi olaraq hərbi hissələrə təhvil verilir. Bununla bərabər, sıravi vətəndaşlar da öz alın tərləri ilə yetişdirdikləri bostan və tərəvəz məhsullarından tez-tez Vətənimizin keşikçilərinə sovqat aparırlar. Bu gün də rayonun bütün təşkilatlarının qadınları bir olub əsgərlərimizə isti yeməklər, şirniyyatlar bişirib göndərirlər.

Sura nənə də buraya müəllimlərə əl tutmağa gəlib. O deyir ki, biz də əlimizdən gələni bişirib, dağlarda keşik çəkən oğullara göndəririk. Onların heç nəyə ehtiyacı yoxdur, amma biz də burada əlimizdən gələni etmək istəyirik. Bilirəm, indi əsgərlərimiz səliqəli yeməkxanalarda yemək yeyir, şəraitli yataqxanalarda yatırlar. Amma biz nənələr də əlimizdən nə gəlirsə, etməyə çalışırıq. Axı onlar o dağlarda keşik çəkməsələr, biz necə rahat yaşayarıq. Onların yuxusuz gecələrinin sayəsində kənd sakinləri əkin-biçinlə məşğul olur, gecələr evimizdə rahat yatırıq. Allah igidlərimizi qorusun.

Yolum Şərurdan, Kəngərlidən keçir, burada da həmin mənzərənin şahidi oluram. Kimi aylıq müavinətini Silahlı Qüvvələrə Yardım Fonduna bağışlayır, kimisi heyvanını kəsib hərbi hissələrə təhvil verir, kimisi isə dua edir.

Bu gün hər kəsin, böyükdən-kiçiyə hamının ürəyi cəbhədə – Qarabağda döyünür. Azərbaycan igidləri xalqının mənəvi dəstəyindən güc alır, durmadan irəliləyir. İllərdir, o gün gələcək dediyimiz günləri bizə gətirir. Bir aydan çoxdur ki, davam edən Vətən müharibəsinin qəhrəmanları irəli getdikcə, tarixi torpaqlarımızı özümüzə qaytardıqca xalqımızın illərdir, yanan ürəyinə təpər, gözlərinə sevinc gəlir. Azərbaycan əsgərinin şücaəti dünyaya səs salır. Vətənin keşiyində duran igidlərə hər kəs dəstəyini bir cür ifadə edir. Ana-ata payı, qardaş-bacı sovqatlarını göndərənlər çox olur. Bunun üçün qanqohumluğuna da ehtiyac yoxdur. Böyük ümidlərlə, təşəkkür hissi ilə yola düşür bu bağlamalar. Və hər gün yolu bir az daha uzanır bu payların. Öncə Cəbrayıla, sonra Füzuliyə, Zəngilana, Qubadlıya yol aldı bu sevgi, minnətdarlıq dolu bağlamalar. Sabah Şuşaya, Laçına, Xankəndiyə göndərmək üçün toplanır bir ananın, bir bacının, bir qardaşın ümid dolu bağlaması...

✍ **Ramiyyə ƏKBƏROVA**

# Vətən qarşısında xidməti olan şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə ediliblər

***Ölkəmizin dinamik sosial-iqtisadi inkişafı nəticəsində sosial problemlərin həllinə xüsusi diqqət və qayğı göstərilməsi, bu istiqamətdə yeni qanunvericilik aktlarının qəbul edilməsi və ya qüvvədə olan aktların təkmilləşdirilməsi digər sosial qruplar kimi şəhid ailələrinin, müharibə iştirakçılarının və onların ailə üzvlərinin də həyat səviyyəsinin yaxşılaşmasına əlverişli şərait yaradıb. Bu gün Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı döyüşlərdə sağlamlığını itirmiş vətəndaşlara hərtərəfli diqqət və qayğı göstərilir, onların mənzil-məişət problemləri həll olunur, müalicələri üçün müvafiq təyinatlı tibb müəssisələrinə göndərişlər verilir. Həmçinin bu qəbildən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onlara ödənilən təqaüd və müavinətlərin məbləği artırılır, bu istiqamətdə yeni normativ-hüquqi aktlar qəbul edilir.***

Muxtar respublikamızda da xüsusi qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıqlarını itirən şəxslərin və şəhid ailələrinin, habelə müharibə iştirakçılarının sosial rifah halının yaxşılaşdırılması istiqamətində lazımi tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə müvafiq kateqoriyadan olan şəxslər fərdi yaşayış evi və mənzillərlə təmin olunur, onlara avtomobillər verilir. Təkcə cari il ərzində muxtar respublikada 25 nəfərə minik avtomobili, 10 ailəyə isə yeni mənzillər təqdim olunub.

Bununla yanaşı, qəbul edilmiş qanunvericilik aktlarına uyğun olaraq müharibə iştirakçılarının sosial və tibbi reabilitasiyası, onlara sosial xidmətlərin göstərilməsi, məşğulluğu, eyni zamanda digər sosial məsələlərin həlli də daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə zəruri işlər həyata keçirilir. Bu qəbildən olan insanlar vaxtaşırı tibbi müayinələrdən keçirilir, tibbi reabilitasiya vasitələri ilə təmin olunurlar. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığını itirmiş şəxslərə müvafiq protez xidmətləri göstərilir, onlar ortopedik məmulatlarla təmin olunurlar.



Görülən bu işlərlə yanaşı, muxtar respublikada təqaüd və müavinətlərin də vaxtında ödənişi diqqətdə saxlanılır, bu istiqamətdə qəbul edilmiş fərman və sərəncamlar dəqiqliklə icra olunur. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış müvafiq fərmanın icrası çərçivəsində muxtar respublika sakinlərindən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi təmin olunub. Hazırda isə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə müharibədə sağlamlıq imkanlarını itirənlər və şəhid ailələri üçün aylıq Prezident təqaüdləri ödənilir, həmçinin 2019-cu il aprel ayının 1-dən təsis olunmuş “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün ödənişi davam etdirilir.

Artıq uzun müddətdir ki, muxtar respublikada dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin əlamətdar və bayram günlərində hərbi hissələrə sovqat aparmaları, mədəniyyət kollektivlərinin əsgərlər arasında konsert proqramları ilə çıxış etmələri ənənə halını alıb. Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də məhz əsgərlərimizin mənəvi-psixoloji hazırlığıdır. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Həmin tədbirlərin tərkib hissəsi kimi, sağlamlıq imkanları məhdud qadınlar tərəfindən hərbi qulluqçular üçün yun boyunluq və yun corab dəstlərinin toxunulması işi də mühüm əhəmiyyət daşıyır. Təbii ki, çətin dağlıq şəraitdə xidmət edən əsgərlərə isti qış geyimlərinin məhz məhdud fiziki imkanlılar tərəfindən hazırlanması, onların əsgərlərlə həmrəylik nümayiş etdirməsi xalqımızın öz ordusuna olan sevgi və ehtiramının növbəti ifadəsidir. Avqustun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırığa uyğun olaraq hərbi hissələr üçün yun corabların toxunması işi cari ildə də davam etdirilir. Bu məqsədlə sağlamlıq imkanları məhdud şəxslərlə müqavilələr bağlanılmış, ilkin olaraq toxunmuş 2000 cüt yun corab və 1700 ədəd boyunluq 14 oktyabr 2020-ci il tarixdə hərbi hissəyə təhvil verilmişdir. Belə tədbirlərin təşkili, eyni zamanda həm də məhdud fiziki imkanlı şəxslərin səmərəli məşğulluğuna, onların sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradır.

Bu gün həyata keçirilən tədbirlər hərbi qulluqçular, müharibə iştirakçıları, onların ailə üzvləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır, göstərilən diqqət və qayğı üçün minnətdarlıq edirlər. Təbii ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda ordu quruculuğuna, hərbi qulluqçuların və ailə üzvlərinin sosial müdafiəsinə göstərilən hərtərəfli diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan Ordusu müharibə meydanlarında tarixi uğurlar əldə edərək işğal altındakı torpaqlarımızı düşməndən azad edir, bu döyüşlərdə yüksək peşəkarlıq, əzm və böyük şücaət göstərir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## *“Qarabağ Azərbaycandır!”* mövzusunda tədbirlər keçirilib



Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində “Qarabağ Azərbaycandır!” vətənpərvərlik mövzusunda tədbir keçirilib. Universitetin Tədris və tərbiyə işlər üzrə prorektoru Rafiq Rəhimov Azərbaycan torpaqlarının haqsızcasına 30 il müddətində erməni tapdağı altında olmasından, bu haqsızlığa göz yummayacağımızdan danışıb. Vurğulanıb ki, artıq işğal altında olan torpaqlarımız bu gün Ali Baş Komandanımız cənab İlham Əliyevin uğurlu siyasəti və qətiyyətli addımı sayəsində öz azadlığına qovuşur. Prorektor onu da qeyd edib ki, universitetimizdə Fiziki tərbiyə və Çağırışaqədərki hazırlıq müəllimliyi ixtisası da vətənpərvər gənc nəslin formalaşmasında müstəsna rol oynayır.

Naxçıvan Muxtar Respublikası Veteranlar Təşkilatının sədr müavini Sultan İsmayılov çıxışında bildirib ki, Vətənə olan sevgi əbədi və əzəli bir hissdir. Diqqətə çatdırılıb ki, bizim müqəddəs borcumuz Vətənə xidmət etmək, hər qarış torpağına sinəmizi sipər edərək onu qorumaqdır.

Çıxışlardan sonra fakültə tələbələrinin ifasında kompozisiya təqdim edilib.

Tədbir mövzu ilə bağlı videoçarxın nümayişi ilə başa çatıb.

**Telli MUSTAFAYEVA**

* * *

*“Naxçıvan” Universitetində 9 Noyabr – Bayraq Gününə həsr olunmuş tanınmış dekorativ sənət rəssamı Aygün Nağıyevanın “Qarabağ Azərbaycandır!” adlı sərgisinin açılışı olub.*

Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, bu gün cəbhədə tarix yazan Azərbaycan Ordusunun əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağ uğrunda döyüşlərdə əldə etdikləri böyük uğurlara hər bir Azərbaycan vətəndaşı sevinir, fəxarət hissi keçirir. Azərbaycan əsgəri bu gün bütün dünyaya Azərbaycan Ordusunun gücünü və əzmkarlığını göstərir. Rektor dekorativ sənət rəssamını təbrik edərək bildirib ki, “Qarabağ Azərbaycandır!” adlı sərgi sarsılmaz birliyimizin, rəssamımızın Vətənə olan sevgisinin bariz nümunəsidir.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Sərgidə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Hüseyn Bağırsoylu, Həbibə Allahverdiyeva, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri, müəllim və tələbələr iştirak ediblər.

Rəssam Aygün Nağıyeva sərginin təşkil olunmasında göstərilən diqqətə görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, sərgidə dekorativ sənət rəssamının iyirmidən çox əsəri nümayiş olunub. Sərgi zamanı müxtəlif qiymətli daşlardan hazırlanmış ulu öndər Heydər Əliyevin, Milli qəhrəman Mübariz İbrahimovun portretləri, eləcə də Türkiyə-Azərbaycan qardaşlığını özündə təcəssüm etdirən əsərlər sərgi iştirakçılarının marağına səbəb olub.

**Seyfur HACIMURADOV**

# Xürrəmilər hərəkatı Azərbaycan xalqının azadlıq mübarizəsidir



***Azərbaycanın çox əlverişli geosiyasi mövqedə yerləşməsi, yeraltı və yerüstü sərvətlərinin zənginliyi istər qonşu dövlətlərin, istərsə də xarici imperiyaların diqqətini tarixən özünə cəlb edib, onlar işğal etmək üçün fürsət axtarıblar.***

Azərbaycana marağı olan imperiyalardan biri də Ərəb Xilafəti idi. Xilafət qoşunları 642-ci ildə Azərbaycanın sərhədlərini keçərək 651-ci ildə Sasanilər imperiyasının varlığına son qoydular. Sasani imperiyasından asılı olan Atropatena və Albaniyanın əraziləri də Ərəb Xilafətinin tərkibinə qatıldı. İlk vaxtlar ərəblər işğal etdikləri ərazilərdə yumşaq vergi siyasəti həyata keçirirdilər, sonra vergi və mükəlləfiyyətlərin ağırlığı, ərəblərin köçürmə siyasəti əsarətdə olan xalqların etiraz çıxışlarına və üsyanlarına səbəb oldu, Beyləqanda Müsafirin başçılığı altında 748-ci ildə başlanan üsyan tezliklə yatırıldı. Mənbələrdə “əl-müxəmmirə” – “qırmızı geyinmişlər” adı ilə məşhur olan Xürrəmilərin ərəblərə qarşı ilk çıxışları 778-ci ildə baş verdi. Müvəffəqiyyətsizliyə uğrayan bu üsyandan keçən az qala iyirmiillik sükutdan sonra “qırmızı geyinmişlər”in 796-797-ci illərdəki üsyanları da uğursuz oldu. Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə Xürrəmilər azadlıq rəmzi olan qırmızı bayraq qaldırıblar. Ərəb tarixçisi ət-Təbərinin verdiyi məlumata görə, Xürrəmilərin 808-809-cu illərdə baş verən çıxışları İsfahan, Rey, Həmədan və başqa ərazilərdə yüz mindən artıq üsyançını əhatə edirdi. Bu çıxışlar da uğursuz olmuş, saysız adam öldürülmüş, çoxlu əsir tutulub Bağdad bazarında satılmışdır. Mənbələrdən məlum olur ki, 816-cı ildə Xürrəmilərin rəhbərləri olan Cavidanla Əbu İmran arasında çəkişmə və ədavət açıq döyüşdə hər ikisinin ölümü ilə nəticələnmişdi.

816-cı ildən Xürrəmilər hərəkatına Babək rəhbərlik etməyə başladı. Mənbələrin verdiyi məlumatlara görə, Babəkin əsl adı Həsən olub. 798-ci ildə Ərdəbil yaxınlığındakı Bilalabad kəndində dünyaya göz açan Babəkin Cavidanla tanışlığı Zəncanda olub. Digər mənbəyə görə, Cavidan bir dəfə fırtınaya düşüb və Babəkgildə gecələməli olub, Babəkin dərin zəkasına, yaşından xeyli irəliyə getdiyinə heyran qalan Cavidan Babəkin anası Bərumənddən icazə alaraq Babəki Bəzz qalasına gətirib.

Xürrəmilərin mübarizəsi tezliklə əsarətə qarşı yönəldilmiş ümumxalq hərəkatına, sözün əsl mənasında, müharibəyə çevrilib. Üsyanın əsas hərəkətverici qüvvələri kəndlilər olsa da, şəhər yoxsulları, sənətkarlar, habelə Xilafətdən narazı olan bəzi yerli feodallar da bu mübarizəyə qoşulublar. Xürrəmilər icmasına rəhbərliyi qəbul etmiş Babək Cavidanın vəsiyyəti adlandırdığı “Torpağa sahib olmalı, zalımları məhv etməli və məzdəkiliyi dirçəltməli” idilər. Çox keçmədən Azərbaycanın cənub torpaqlarının çoxunu ərəblərdən təmizləyən üsyan dalğası qonşu vilayətlərə də yayılaraq azadlıq mübarizəsi şəklini aldı. Xəlifə əl-Məmun 819-cu ildə Xürrəmilərə qarşı ilk nizami qoşun göndərdi, lakin qoşun məğlub oldu. 820-826-cı illərdə Xürrəmilərə qarşı göndərilən ərəb sərkərdələrinin qoşunları da məğlub edildi.

829-cu il iyunun 3-də Həştadsər dağı yaxınlığında Xürrəmilərlə ərəblər arasında həlledici döyüş baş verdi. Qanlı vuruşma Xürrəmilərin qələbəsi ilə bitdi. Xürrəmilər 30 minədək ərəb döyüşçüsünü, o cümlədən ərəblərin məşhur sərkərdəsi Məhəmməd ət-Tusini məhv etdilər. 830-cu ildə I Həmədan döyüşündə Xürrəmilər yenə uğur qazandılar. 833-cü ildə isə ilk dəfə II Həmədan döyüşündə məğlub oldular, lakin ərəblərin 60 minlik qüvvəsini məhv etdilər. Həmin döyüşdəki qələbədən sonra xəlifə Mötəsim Bizansla müharibəni dayandırdı və bütün qüvvələrini Xürrəmilərə qarşı yönəltdi. 835-ci ildə Bizansa qarşı döyüşdə özünü mahir döyüşçü, istedadlı sərkərdə kimi göstərmiş Afşin Heydər ibn Kavusu Xürrəmilərlə döyüşəcək bütün xəlifə qoşunlarının baş komandanı təyin etdi. 835-ci ilboyu Afşin Bəzz qalası ətrafındakı məntəqələrin möhkəmləndirilməsi işini davam etdirir. 836-cı ildə Xürrəmilərlə ərəblər arasında yeni döyüş baş verdi. Ərəb ordusuna özündən xeyli razı sərkərdələrdən biri – Buğa əl-Kəbir başçılıq edirdi. O, Afşinin əmrini gözləmədən Xürrəmiləri məğlub etməyi qərara almışdı. Lakin döyüş ərəblərin uğursuzluğu ilə başa çatmış, sərkərdə öz canını zorla xilas edə bilmişdi. 836-cı ilin qışında Babək ən yaxın sərkərdəsini, öz malikanəsində öldürülmüş Tarxanı itirdi. Onun ölümü Xürrəmilərin fəaliyyətini xeyli mürəkkəbləşdirdi, bundan sonra hərəkat iştirakçıları bircə dəfə də qələbə qazana bilmədilər.

837-ci il avqustun 26-da Xürrəmilərlə ərəblər arasında son döyüş oldu. Afşin Bəzz qalasının yerləyeksan olunması haqqında göstəriş vermişdi. Bəzz alınarkən 80 mindən artıq Xürrəminin öldürüldüyü, 7600 əsirin ələ keçirildiyi bildirilir. Xəlifə Babəkə Bizansla müharibə aparmaq üçün onlarla müttəfiq olmasını təklif edir. Lakin Babək “Bir gün azad yaşamaq, qırx il miskin qul kimi yaşamaqdan yaxşıdır”, – deyərək bu təkliflə qəti razılaşmır. 838-ci il martın 14-də Babək Samirə şəhərində şaqqalanmaq kimi ən ağır ölümə məhkum olunur. Edam zamanı Babək dəhşətli ağrıya və əzaba dözərək “Mən həmişə səninləyəm, Azərbaycan!” – deyərək əbədiyyətə qovuşur.

Dövrün ən böyük hadisələrindən olan Xürrəmilər hərəkatının uğursuzluğuna baxmayaraq, hərəkat əsarət altında yaşayan xalqların hafizəsində dərin izlər qoyur. Xilafəti kökündən sarsıdır, sonrakı siyasi hadisələrin əsaslı şəkildə dəyişməsinə şərait yaradır. Bu hərəkat nəticəsində Xilafət öz qüdrətini itirərək zəifləyir və Azərbaycanda qədim dövlətçilik ənənələri inkişaf edərək Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər və Rəvvadilər kimi müstəqil dövlətlərin yaranmasına səbəb olur.

Bəli, azadlıq itkisiz əldə edilmir, mübarizə ilə qazanılır. Eynilə 1990-cı ilin 20 yanvarında olduğu kimi. Mənfur düşmənlərimiz Azərbaycan xalqının nə qədər mübariz, əzmkar, qəhrəman olduqlarını dərk etməlidirlər. Bu mübarizlik və əzmkarlıq Azərbaycan xalqının dövlət müstəqilliyini əldə etməsi ilə nəticələndi. Bu gün müstəqilliyimiz möhkəm, polad dayaqlar üzərində qurulub. Bu azadlıq və müstəqillik – Azərbaycan tarixinin keçmişinə dərindən bələd olan, xoşbəxt gələcəyini böyük uzaqgörənliklə görən dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin ifadəsi ilə desək: ***“Müstəqilliyimiz əbədidir, sarsılmazdır və dönməzdir!”*** Təbii ki, bu siyasətdən güc-qüvvət alan müstəqilliyimiz günü-gündən daha da möhkəmlənir və qüdrətli Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi, maddi, mənəvi gücünü və potensialını bütün dünyaya sübut edir. Xalqımız bu gün də öz tarixi torpaqlarının – Qarabağın azad edilməsi uğrunda Vətən müharibəsi aparır. Bu müharibə sentyabrın 27-dən mənfur düşmənlərimizin yenidən Azərbaycan torpaqlarına ərazi iddiası ilə başlayıb, lakin bütün cəbhələrdə düşmən müzəffər Azərbaycan Ordusu tərəfindən məğlub edilir. Ümid edirik ki, tezliklə qələbə qazanılacaq, üçrəngli bayrağımız işğaldan azad edilmiş bütün bölgələrimizdə əzəmətlə dalğalanacaq!

**Ulduz EYVAZOVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin tarix müəllimi***

---

*Təhsil millətin gələcəyidir*

# Prezident təqaüdünə layiq görülmüş məzunlarımız

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin oktyabrın 29-da imzaladığı Sərəncama əsasən 2020-2021-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələr Prezident təqaüdünə layiq görülüb. Sevindirici haldır ki, bu il muxtar respublika məzunlarından da 4-ü həmin tələbələr sırasındadır. Onlarla görüşüb həm yüksək ballarla ali məktəblərə qəbul olunmaları, həm də Prezident təqaüdünə layiq görülmələri münasibətilə təbrik etdik, həmsöhbət olduq.***

2003-cü ildə Ukraynanın Kiyev şəhərində anadan olan ***İlham Hüseynquliyev*** I-VI sinif təhsilini Kiyev, VII və VIII sinif təhsilini Türkiyə Respublikasının İzmir şəhərlərində alıb. 2017-ci ildən isə təhsilini Naxçıvan şəhər



Heydər Əliyev adına tam orta məktəbdə davam etdirib. Oxuduğu illər ərzində məktəbin yüksək təlim göstəriciləri ilə fərqlənən şagirdlərindən biri olan İlham Hüseynquliyev hələ kiçik yaşlarından dəqiq elmlərə maraq göstərib, öz fəallığı, biliyi ilə seçilib, dəfələrlə diplom və fəxri fərmanlarla təltif edilib. İlham 2019-2020-ci tədris ilində keçirilən sınaq imtahanlarında 600-700 arası nəticə göstərib, eyni zamanda Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin keçirdiyi məktəblərarası “Nə? Harada? Nə zaman?” intellektual oyununda iki dəfə komanda ilə iştirak edərək I və II yerə layiq görülüb. O, 2018-2019-cu tədris ilində muxtar respublika fənn olimpiadasında fizika fənni üzrə I, 2019-2020-ci tədris ilində isə eyni fənn üzrə II yeri qazanıb. İlham, həmçinin rus və ingilis dillərində də sərbəst danışa bilir. Musiqiyə, incəsənətə böyük marağı olan İlhamın origami (kağızla qatlama) sənəti üzrə Naxçıvanda, Türkiyədə və Kiyevdə sərgiləri təşkil edilib.

Heydər Əliyev adına tam orta məktəbi qızıl nişanla başa vuran, 692 balla Bakı Ali Neft Məktəbinin Proseslərin avtomatlaşdırılması ixtisasına qəbul olunan, qəbul imtahanlarının ölkə birincisi kimi tanınan, Prezident təqaüdünə layiq görülən İlham deyir ki, seçdiyim ixtisasda təhsil almaq ən böyük arzum olub. Bu arzusuna çatan gənc artıq qədəm qoyduğu tələbəlik həyatında görmək istədiyi işlərdən danışır: “Bu ixtisası sevərək seçmişəm və qarşıma məqsəd qoymuşam ki, bu sahədə gələcəkdə yeni ixtiralarla ölkəmin adını beynəlxalq səviyyədə tanıdam. Mən çox şanslıyam ki, məhz Bakı Ali Neft Məktəbinin tələbəsiyəm”.

Gələcəyin həkimi olacaq ***Nəriman Həsənov*** 2003-cü ildə Ordubad rayonunun Nüsnüs kəndində anadan olub. Kənd tam orta məktəbini qızıl nişanla başa vurub. Oxuduğu illərdə istər məktəbdaxili, istərsə də məktəblərarası bilik yarışlarında fəal iştirakı ilə seçilən, keçirilən sınaq imtahanlarında hər zaman yüksək



nəticələr əldə edən Nəriman dəfələrlə muxtar respublika fənn olimpiadalarında biologiya fənni üzrə bütün sınaqlardan birinciliklə ayrılıb. İstedadlı yeniyetmə, həmçinin 2019-cu il keçirilən məktəblərarası “Xəmsə” yarışmasında da iştirak etdiyi komanda ilə birlikdə I yeri qazanıb. 2019-2020-ci tədris ilində keçirilən respublika fənn olimpiadasında biologiya fənni üzrə I yerin qalibi olaraq qızıl nişana layiq görülüb.

672 balla muxtar respublika ikincisi, IV ixtisas qrupu üzrə qəbula görə isə muxtar respublika birincisi olan Nəriman artıq Azərbaycan Tibb Universitetinin tələbəsidir. O deyir ki, bizim hərtərəfli təhsil almağımız üçün göstərilən yüksək qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə gələcəkdə də daha böyük uğurlar qazanacağına söz verən gənc deyir ki, qarşıdakı hədəfi Azərbaycan Tibb Universitetini birinciliklə bitirərək tanınmış həkim olmaqdır: “Hədəfim yüksək nəticə əldə edərək Prezident təqaüdçüsü olmaq idi. Sevinirəm ki, çoxları üçün əlçatmaz olan bu arzuma çatdım. Bunu həyatımın uğurlu başlanğıcı kimi qəbul edirəm”.

Siz onu əldə etdiyi bir çox təhsil uğurları ilə tanıyırsız. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 24 iyun tarixli Sərəncamı ilə adı “Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na salınaraq Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüş şagird, məktəbi qızıl nişanla başa vuran məzun və seçdiyi ixtisas qrupu üzrə ən yüksək nəticəsinə görə Prezident təqaüdünə layiq görülmüş tələbə kimi. Söhbət 2019-2020-ci tədris ilində öz bilik və bacarığı ilə seçilən məzun ***Siyavuş Bağırov***dan gedir. Naxçıvan şəhərində anadan olan Siyavuş 2020-ci ildə Naxçıvan şəhərindəki 8 nömrəli məktəbi



qızıl nişanla başa vurub. Siyavuş hələ kiçik yaşlarından bilik yarışlarında, məktəblilərin fənn olimpiadalarında müvəffəq yerlər tutub, eləcə də keçirilən bir sıra intellekt oyunlarda komanda kapitanı olaraq öz bilik və hazırcavablılığı ilə təmsil etdiyi komandanı qalib edib.

Siyavuş VIII sinifdə oxuyarkən riyaziyyat fənnindən I yerə layiq görülüb, X-XI siniflərdə muxtar respublika fənn olimpiadasında tarix fənni üzrə iki dəfə I, respublika fənn olimpiadasında isə tarix fənni üzrə ilk dəfə gümüş, ikinci dəfə isə qızıl medal qazanıb. “Xəmsə” və “Nuh yurdu” intellektual oyunlarında dəfələrlə iştirak edib, məktəb kollektivi ilə iki dəfə muxtar respublika çempionu, bir neçə dəfə isə şəhər çempionu olub. 3 il davamlı olaraq muxtar respublikanı Bakıda “Xəmsə” yarışı üzrə təmsil edib və iştirak etdiyi komanda 2019-cu ilin dekabr ayında Azərbaycandakı 100-dən çox komanda arasında “İlin ən yaxşı klubu” adına layiq görülüb. Muxtar respublikada yeniyetmələr arasında ilk dəfə keçirilən “Breyn-Rinq” intellektual oyununda I yerə çıxaraq muxtar respublika çempionu adını alıb. İlk dəfə öz sinif yoldaşı Araz Qulusoyla birlikdə “Sabahın alimləri” IX Respublika müsabiqəsində muxtar respublikanı təmsil edib, hazırladıqları layihə Elmi Ekspertiza Komitəsi tərəfindən III yerə layiq görülüb. Şahmata böyük maraq göstərən Siyavuş bu sahədə də uğurları ilə seçilib, 2014-cü ilin may ayında ümummilli lider Heydər Əliyevin 91 illik xatirəsinə həsr olunmuş “Naxçıvan Open” şahmat festivalında iştirak edib, ikinci yerə layiq görülüb.

Məktəbi qızıl nişanla başa vuran Siyavuş III ixtisas qrupu üzrə ali məktəbə qəbul imtahanında 665 bal toplayaraq Bakı Dövlət Universitetinin tədrisi ingilis dili üzrə Hüquqşünaslıq ixtisasına qəbul olub.

***Allahverdi Sayılov*** 2003-cü ildə Naxçıvan şəhərində anadan olub. 2014-cü ildə Heydər Əliyev adına tam orta məktəbi qızıl nişanla başa



vuran məzun qəbul imtahanlarında 662 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Tibb fakültəsinin tələbəsi adını qazanıb. 2017-ci ildə Heydər Əliyev adına tam orta məktəbin VIII sinifləri arasında coğrafiya fənnindən keçirilmiş bilik yarışında I, 2018-ci ildə keçirilən bilik yarışında “Turan” komandasının üzvü kimi I, 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi münasibətilə yeniyetmələr arasında keçirilən yarışlarda – “Nə? Harada? Nə zaman?” intellektual oyununda “Qələbə” komandasının üzvü kimi I, “Poliqon” strateji intellekt oyununda “Tərəqqi” komandasının üzvü kimi II, “Xəmsə” milli intellektual oyununda isə “Aksent” komandasının üzvü kimi I yerlərə layiq görülüb.

Seçdiyi ixtisas üzrə muxtar respublika ikincisi olan və Prezident təqaüdünə layiq görülən Allahverdi Sayılov deyir: “Təhsil aldığım müddətdə hər zaman biliyimə görə seçilən şagird olmuşam. Oxuduğum məktəbdəki tələbkarlıq, eyni zamanda biz şagirdlərin potensialının düzgün istiqamətləndirilməsi sonda uğurlu nəticələr əldə etməyimizə imkan verdi. Heydər Əliyev adına tam orta məktəbin təkcə builki buraxılışının 11 məzununun 500-dən yuxarı bal toplaması da bunun ifadəsidir”.

*Elə məhz muxtar respublikada təhsilin inkişafı üçün yaradılan şəraitin, müəllim-şagird-valideyn münasibətlərinin düzgün qurulmasının, təhsil müəssisəsində əlverişli təlim mühitinin yaradılmasının nəticəsi olaraq ali məktəblərə builki qəbul imtahanlarında yüksək bal toplayaraq ən böyük arzularına çatan gənclərin bu gün ölkəmizin nüfuzlu məktəblərində təhsil alması və bunların nəticəsində həmin gənclərin hələ məktəbdə oxuyarkən qazandıqları uğurlar elə onların gələcək yollarında da əldə edəcəkləri müvəffəqiyyətlərdən xəbər verir.*

**Ülviyyə HACIYEVA**
***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Dədəmiz Qorqud demişdir:



*-Torpağın yurd, Vətən olması üçün iki şərt lazımdır: biri odur ki, torpağı gərək əkib-becərəsən, o birisi odur ki, torpağı gərək yağılardan qoruyasan. Əgər torpağı əkib-becərmədin, qorumağa dəyməz. Torpağı qoruya bilmədin, əkib-becərməyə dəyməz.*

* * *

*-Böyük, iti polad qılıncı çalmayınca döyüş bitməz.*

* * *

*-Savaşmadan-vuruşmadan igid doğmaz.*

* * *

*-İgidin atını at, oxunu ox keçməz.*

* * *

*-İgid oğul mərdlik göstərər, elini, obasını xilas edər.*

* * *

*-Qardaşlı igidlər qalxar-qopar olar.*

* * *

*-El birliyi sel gücüdür, yıxar keçər, önündə duran olmaz.*

* * *

*-Ağıllı oğul olsa, ocağının közüdür.*

* * *

*-Qadir Tanrı səni namərdə möhtac eyləməsin.*

* * *

*-Çalıb-kəsən iti qılıncı müxənnətlər çalınca, sınsa yaxşıdır!*

* * *

*-Səni haqqa ismarladım. Haqq yandıran çırağın yanar dursun.*

* * *

*-Bu dünyanı ərənlər əqli ilə bulmuşlar.*

## Dili susdurub, ürəyi danışdıran bir sevgi

Vətən! Bir ovuc torpağında sənin ətrin, sənin nəfəsin, bir yudum suyunda sənin nəğmən, sənin səsin, sənin varlığın var. Neçə ilə, qərinələrə, əsirlərə, minilliklərə şahidlik edən ağ örpəkli, yaşıl yamaclı dağların var. Qayalarda qəddi əyilməyən, harayını sinəsinə sipər çəkən babaların əl izləri, ürəyi dağlı nənələrin sığalı var. Hər daşında canlı tarix, qan yaddaşı, ölümsüz əsərlərin var. Uğruna ananın bircə oğlunu fəxrlə ölümə göndərdiyi, rəşadətin, şəhadətin var. Bir qarış torpağından keçməyən, ölümün gözünə dik baxan qəhrəmanların, şəhidlərin var.

Özün boyda bir sevgi var. Dili susdurub, ürəyi danışdıran bir sevgi. O sevgi ki səni canlandırır, səni yaşadır, sənə aparır. Bir ehtiras, bir qucaq var. Coşan qanım, titrəyən qəlbim səni səsləyir, səni gözləyir. Özün qədər güclü nidaların, müqəddəs cihadların var. Ayaq izlərimizi arzulayan, sevgidən alovlanan Vətən həsrəti, yurd intizarı bizi səsləyir, bizi çağırır. Bu çağırış zəfərin inamıdır. Qələbənin ruhudur. Anamız, andımız Vətən torpaqlarına canımızla, qanımızla, mərdimizlə, igidimizlə, qürurumuzla, duyğumuzla, varlığımızla yol almışıq, sənə çatan günlərimiz çox yaxındadır...

**Türkan HÜSEYNLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin oktyabr ayında verilən elektrik enerjisinin həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2934 | 217,2 | 217,2 | 100,0 |
| 2. | Şərur rayonu | 2021 | 143,2 | 143,2 | 100,0 |
| 3. | Babək rayonu | 1593 | 112,8 | 112,8 | 100,0 |
| 4. | Ordubad rayonu | 838 | 59,1 | 59,1 | 100,0 |
| 5. | Culfa rayonu | 937 | 67,7 | 67,7 | 100,0 |
| 6. | Kəngərli rayonu | 696 | 51,0 | 51,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 277 | 19,7 | 19,7 | 100,0 |
| 8. | Sədərək rayonu | 218 | 15,3 | 15,3 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 20778 | 1870,0 | 1878,7 | 100,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30292** | **2556,0** | **2564,7** | 100,3 |

**Qeyd:** Oktyabr ayından texniki itki nəzərə alınmaqla daxil olan 30 milyon 292 min kilovat/saat elektrik enerjisinin dəyəri 2 milyon 556 min manat olmuş, cəmi 2 milyon 564 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,3 faizini təşkil edir.

## Muxtar respublika ərazisində payız yaşıllaşdırma işlərinə başlanılıb

***Naxçıvan Muxtar Respublikası ərazisində əlverişli ekoloji mühitin formalaşdırılmasında kompleks dövlət tədbirləri həyata keçirilir. Xüsusilə bu sahədə ən mühüm ekoloji amil olan yaşıllıqların, meşə ehtiyatlarının qorunması və yeni meşə massivlərinin, meyvə bağlarının salınması üçün tədbirlər icra edilir. Həyata keçirilən dövlət ekoloji tədbirləri və bu sahədə müşahidə olunan vətəndaş fəallığı nəticəsində son 27 ildə meşə və yaşıllıqların sahəsi 0,6 faizdən 20 faizə qədər artmışdır.***



Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramları çərçivəsində, əsasən, kənd təsərrüfatı əkinləri üçün yararsız olan, müxtəlif dərəcədə eroziyaya məruz qalmış və meyilli (təpəlik) ərazilərdə, çay vadilərində, yol və sututarların kənarlarında, ümumilikdə, 100 hektarlarla sahədə meyvə bağları, o cümlədən cəviz, badam, ərik, alma, şaftalı, tut, iydə bağları salınmışdır. Onu da qeyd etmək lazımdır ki, kəskin kontinental iqlimə malik olan, yağıntıların azlığı, günəşli günlərin çoxluğu ilə səciyyələnən muxtar respublikamızda yaşıllıqların salınması ilə bərabər, onun becərilib saxlanılması da əsas şərtdir. Sevindirici haldır ki, hər il yaşıllıqların salınması muxtar diyarımızda gözəl ənənə halını almışdır. Demək olar ki, hər kəs bu fəaliyyət sahəsinin təkcə maddi deyil, həm də mənəvi dəyərini yaxşı dərk edir. Məhəmməd Peyğəmbər hədislərinin birində belə buyurur: *"Əgər bir saat sonra qiyamətin qopacağını bilsəniz, əlinizdəki, fidanı yerə basdırın".* Bu, dinimizdə ağaca, yaşıllığa verilən dəyərin ifadəsidir.



Yaşıllıqların əhəmiyyəti, o cümlədən bu işlərin kütləviliyinin vacibliyi dinimizdə hər zaman gündəmdə olmuşdur. Məhəmməd Peyğəmbər insanları hər zaman ağac əkməyə təşviq etmiş və onlarda ağaca, bitkiyə, təbiətə sevgi aşılamışdır. Hədislərindən birində deyilir: *"Bir müsəlman bir ağac əkər, onun məhsullarından bir insan, ya da bir heyvan yeyərsə, o yeyilən şey ağacı əkən şəxs üçün bir sədəqə olar".*

Xalqımızın əsrlərboyu malik olduğu zəngin maddi-mənəvi dəyərləri qoruyan, yaşadan, dini dəyərləri uca tutan, xalqına, elinə ömrünü fəda edən, müasir Azərbaycanın qurucusu və memarı ulu öndər Heydər Əliyev də siyasi hakimiyyətinin hər iki dövründə yaşıllıqlara xüsusi önəm vermiş, onların qorunub artırılmasını diqqətdə saxlamışdır. Ulu öndərin tapşırıqlarına uyğun olaraq yaşıllıq salınması artıq muxtar respublikamızda ənənə halını almış, həyat tərzinə çevrilmişdir. Bu tədbirlər muxtar respublika ərazisində, ayrı-ayrı inzibati rayonlarda, təkcə yaşıllaşdırma aylıqları çərçivəsində ağac əkilməsi ilə bitmir, digər aylarda, xüsusən də isti yay aylarında onların qorunub becərilməsi ilə davam etdirilir.

Naxçıvan Muxtar Respublikasında ötən illərdə olduğu kimi, 2020-ci ildə də yeni meyvə bağlarının, yaşıllıqların salınması işləri aparılır. Bu ilin yaz əkin mövsümündə regionumuzda yaşıllıqların sahəsi 282 hektardan çox artırılmış, 88 hektar sahədə yeni meyvə bağları salınmışdır.

Bu tədbirlər payız əkin mövsümündə də davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-2021-ci illərdə payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə verilən tapşırıqlar rəhbər götürülərək hazırlanmış payız əkin planına əsasən 2020-ci ilin payızında, ümumilikdə, 265 hektar sahədə yaşıllaşdırma işlərinin icrası nəzərdə tutulmuşdur ki, bunun da 41,3 hektarı yeni yaşıllıqlar, meyvə bağları, 3,3 hektarı üzüm bağlarıdır. Ötən illərdə salınmış yaşıllıqların 78 hektarında tinglə bərpa, 140 hektar sahədə toxumla əkinin aparılması nəzərdə tutulmuşdur. Yaxşı haldır ki, yaşıllıqların salınması işlərində vətəndaşlar, bələdiyyələr də təşəbbüs göstərir. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbiətin qorunması, yaşıllıqların salınması işlərində geniş ictimaiyyətin fəallığının artırılması məqsədilə vaxtaşırı yerlərdə maarifləndirmə tədbirlərini icra edir. Qeyd edək ki, ağac əkən, yaşıllıq salan vətəndaşlara nazirliyin tinglik sahələrində yetişdirilən meyvə və meşə tingləri təmənnasız olaraq verilir. Məqsəd muxtar respublikamızda yaşıllıq sahələrinin genişləndirilməsinə nail olmaq, vətəndaşların bu işlərdə fəallığının təmin edilməsindən ibarətdir. Çünki bu gün əkilən meyvə bağları bir neçə il sonra bol məhsul, bir və ya bir neçə ailənin gəlir mənbəyi, iş yeridir.

Naxçıvan Muxtar Respublikasında artıq payız əkin mövsümünə başlanılmışdır. Hazırda orta dağlıq, dağətəyi ərazilərdə toxumla əkin işləri aparılır. Milli park, qoruq ərazilərində yabanı meyvə toxumları və yerli meşə cinsi ağacların toxumları ilə əkin işləri davam etdirilir.

Yaşıllaşdırma işlərinin həm kəmiyyət, həm də keyfiyyətinin artırılması üçün yerli şəraitə uyğunlaşdırılmış ting yetişdirilməsi bu sahədə xüsusi əhəmiyyət daşıyır. Vaxtında toxum tədarük edilməsi, ting yetişdirilməsi sahəsində aparılan işlər tingə olan tələbatın tamamilə təmin edilməsinə şərait yaratmışdır. Nazirliyin tinglik təsərrüfatlarında 450 min ədəddən çox meşə, meyvə, həmişəyaşıl tinglər vardır ki, bu da muxtar respublika ərazisində 2020-ci ilin payız, 2021-ci ilin yaz yaşıllaşdırma işlərində tingə olan tələbatı tamamilə ödəyəcəkdir.

Qeyd etmək lazımdır ki, ağac əkilməsi özlüyündə bir neçə sahədə böyük əhəmiyyət kəsb edir. Belə ki, ağac əkən, onu becərən şəxslər torpağına daha çox bağlı olan insanlardır ki, belə fəaliyyət bu bağlılığı daha da artırır. Daxili paklıq, Vətəninə, elinə sevgi hissi insanları qurub-yaratmağa, gözəllikləri artırmağa sövq edir. Yaşıllıqlar sağlamlıq üçün faydalı olmaqla yanaşı, onların salınmasında iştirak etmək də özlüyündə sağlamlıqdır. Yaşıllıq təmiz havadır, bol içməli sudur, zəngin humuslu torpaqdır, rəngarəng bitki örtüyüdür, müxtəlifliyi çox olan heyvanat aləmidir, estetik gözəllikdir, bir sözlə, insan həyatı üçün vacib olan təbii komponentdir. Elə, bu mənada, yaşından, işindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş yaşıllaşdırma işlərində daha çox fəaliyyət göstərməlidir.

2020-ci ilin payızında ilk yaşıllaşdırma tədbiri 31 oktyabr tarixdə Azərbaycan Ordusunun cəbhədə uğurlu əməliyyatları fonunda şəhidlərin əziz xatirəsinə həsr edildi. Ağacəkmədə, ümumilikdə, muxtar respublika üzrə 19 min 542 nəfər iştirak etdi, 12 min 768 ağac və bəzək kolları, 2548 meşə ağacı, 7970 meyvə ağacı, 650 həmişəyaşıl ağac, 1600 üzüm kolu əkildi. İnanırıq ki, mövsümün son yaşıllaşdırma tədbiri torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin qələbəsinə həsr ediləcək.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Müslümov Tural Həsən oğlunun adına verilmiş hərbi vəsiqə və sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 828